*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 56–63
https://doi.org/10.48445/g9482-7449-4296-t

# Dilimizin inkişafı və dövlətçilik tarixində ümummilli lider Heydər Əliyevin rolu

***Könül Məmmədova*** [1]

**XÜLASƏ**
*Məqalədə ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin qorunması və inkişafı istiqamətində göstərdiyi əvəzsiz xidmətlərindən, bununla bağlı imzaladığı sərəncam və fərmanlardan bəhs olunur. Müdrik şəxsiyyət hər zaman öz çıxışlarında tarixi keçmişdən aldığımız dərsləri yada salır, xalqımızın başına gətirilən müsibətləri unutmamağı, bütün bunlardan ibrət almağı tövsiyə edirdi. Onun müəllifi olduğu azərbaycançılıq fəlsəfəsi bu gün dünyanın müxtəlif ölkələrində yaşayan həmvətənlərimizi birləşdirən milli ideologiyadır. Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması bilavasitə Ulu öndərin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək olmuş, ana dilimizin qorunması və təbliği istiqamətində müstəsna tədbirlər görmüşdür. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafında, onun saflığının qorunub işlək dilə çevrilməsində və beynəlxalq münasibətlər sisteminə yol tapmasında ümummilli lider Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi ana dilinə – Azərbaycan xalqının milli dilinə daim diqqət yetirmişdir.*

**AÇAR SÖZLƏR**
*dilimizin inkişafı, dövlətçilik tarixi, ümummilli lider, dil siyasəti, dilin saflığı, dövlət dili*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 19.02.2025
Qəbul edilib: 13.03.2025

[1] Pedaqogika üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0000-0001-8664-4912 | könül.1970@mail.ru


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 56–63
https://doi.org/10.48445/g9482-7449-4296-t

# The Role of the National Leader Heydar Aliyev in the Development of Our Language and in the History of Statehood

***Konul Mammadova*** [1]

**ABSTRACT**
*The article discusses the invaluable services rendered by the national leader Heydar Aliyev to the protection and development of the Azerbaijani language, as well as the orders and decrees he signed in this regard. The wise personality always recalled the lessons we learned from the historical past in his speeches, recommended not to forget the misfortunes inflicted on our people, and to learn from all of them. The philosophy of Azerbaijaniism, which he authored, is the national ideology that unites our compatriots living in different countries of the world today. The formation of language policy on solid foundations in the Republic of Azerbaijan, the improvement of the application of the Azerbaijani language as the state language, and the increase in its influence in the international world by turning it into a means of communication for Azerbaijanis around the world are directly related to the name of the Great Leader. The national leader Heydar Aliyev set an example for everyone with his attitude to language, and took exceptional measures to protect and promote our native language. The national leader Heydar Aliyev had invaluable services in the comprehensive development of the native language in our country, in preserving its purity, in transforming it into a working language, and in finding a way into the system of international relations. The prominent statesman always paid attention to his native language – the national language of the Azerbaijani people.*

**KEYWORDS**
*development of our language, history of statehood, national leader, language policy, purity of language, state language*

**ARTICLE HISTORY**
Received: 19.02.2025
Accepted: 13.03.2025

---

[1] Doctor of Philosophy in Pedagogy, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0000-0001-8664-4912 | könül.1970@mail.ru

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan, onu inkişaf etdirən ən mühüm və güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli, onun qayğısına qalmalı, onu qorumalıdır. Ana dili insanın mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində, mükəmməl təhsil almasında, öz soydaşları ilə ünsiyyət qurmasında mühüm rol oynayır.

Xalqın dilinin dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tarixinin qızıl səhifələrindən biri və onun milli kimliyinin təsdiqidir. Çünki bu, millətin öz taleyinə sahib çıxmasının, dövlət qurmaq və onu qorumaq qüdrətinin, eyni zamanda dilinin zənginliyinin sübutudur. Azərbaycan dili dövlət dili statusu qazanaraq qürurverici tarixi hadisə yaşamışdır. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ulu öndər Heydər Əliyevin dilimizin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan dili Azərbaycan Respublikasının dövlət dilidir, bu dil ölkəmizdə yaşayan 10 milyona qədər vətəndaşın, müxtəlif xalqların, etnik qrupların əsas ünsiyyət vasitəsidir. Azərbaycan dili eyni zamanda İran İslam Respublikasında yaşayan 30 milyondan artıq azərbaycanlıların, İraqın Kərkük, Mosul, Ninəvə, Telafer, Cincar və digər ərazilərində yaşayan 200 minə yaxın kərkük türkləri, türkmənlərin də ünsiyyət vasitəsidir. Son məlumatlara görə, ümumilikdə dünyada 51 milyondan çox azərbaycanlı yaşayır. Rusiya Federasiyası, Gürcüstan, Almaniya, Ukrayna, Əlcəzair, Əfqanıstan, Banqladeş, Misir, Böyük Britaniya, Hindistan, Kanada, Pakistan, ABŞ, Qazaxıstan Azərbaycan əsilli əhalinin ən çox yaşadığı ölkələrdir (Zamanov, 2013, s. 480).

ABŞ-də, xüsusən Qərbi Avropa ölkələrində də (daha çox Almaniya, Danimarka, Hollandiya, Norveç, Fransa) xeyli sayda azərbaycanlı yaşayır. Onların böyük əksəriyyəti İrandan işləmək üçün gedənlərdir. Türkiyədə də yaşayan azərbaycanlıların sayı çoxluq təşkil edir. Onların böyük bir qismi tarixən Ərzurum, Qars, Ərdəhan, Diyarbəkir və başqa vilayətlərdə məskunlaşmış, digər qismi isə 1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan və İkinci Dünya müharibəsindən sonra köç edənlər və onların nəsilləridir. XX əsrin 90-cı illərindən başlayaraq, Rusiyaya gedən və hazırda orada yaşayan azərbaycanlılar da sayca çoxluq təşkil edir. Beləliklə, hazırda dünyada Azərbaycan dilində danışan 50 milyondan çox insan yaşayır (Vəliyev, 2003, s. 89).

## Metodlar

“Dilimizin inkişafı və dövlətçilik tarixində ümummilli lider Heydər Əliyevin rolu” adlı məqaləni yazarkən pedaqoji-metodik ədəbiyyatın təhlili, nəzəri-təhlil, nəzəri-empirik, sosioloji və riyazi-statistik metodlarından istifadə olunmuşdur. Belə ki, ümummilli lider

Heydər Əliyevin Azərbaycan dilinin inkişafı ilə bağlı imzaladığı sərəncam və fərmanlar, konstitusiyamızda Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması, dövlətçilik tarixində əvəzsiz şəxsiyyətin göstərdiyi saysız-hesabsız xidmətlər və s. bu kimi məsələlər yuxarıda qeyd etdiyimiz metodlar vasitəsilə araşdırılaraq təhlil edilmişdir.

## Nəticələr

Ümummilli lider Heydər Əliyevin 2001-ci ilin iyununda imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanına əsasən, avqustun 1-dən etibarən Azərbaycanda bütün media və kütləvi nəşrlər latın qrafikalı əlifbaya keçdi, eyni zamanda "Azərbaycan Dili və Əlifbası Günü" təsis edilərək hər il avqustun 1-də bu günün qeyd edilməsi rəsmiləşdirildi. Ümummilli liderin "Dövlət Dili haqqında" Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2002-ci il), "Dövlət dili haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" (2 yanvar 2003-cü il) sərəncamları dilimizin daha da inkişaf etməsinə zəmin yaratmış, dövlət dilinin tətbiqinin genişləndirilməsi sahəsində, hüquqi bazanın təkmilləşdirilməsində praktik addımlar atılmışdır.

## Müzakirə

Ulu öndərin dövlət dilimizə həssaslıqla yanaşması onun çıxışından gətirilən bu sitatda öz təsdiqini tapır. *"1995-ci il oktyabrın 31-də Elmlər Akademiyasında bütün ziyalıların nümayəndələri bu məsələni müzakirə etdilər. 25-dən çox adam çıxış etdi. Mən bununla qane olmadım. Noyabrın 2-də Konstitusiya Komissiyasının iclasını tamamilə buna həsr etdim. Biz beş saata qədər müzakirə apardıq. O müzakirədən sonra bəlkə də qərar qəbul etmək olardı. Görürsünüz ki, mən bu gün konstitusiya komissiyasının və işçi qrupunun üzvlərinin burada iştirakı ilə müzakirəni yenə də davam etdirirəm"* (Vəliyev, 2003).

H. Əliyevin Azərbaycan dilinin Konstitusiyamızda əks olunması barədə fikri də maraqlıdır: *"Heç kəs deyə bilməz ki, XII əsrdə kim nə deyibsə, o bu gün bizim üçün ehkamdır. Bunu nəzərə almaq lazımdır və bunu unutmaq lazım deyil. Bu gün biz dövlət dilimiz haqqında məsələni müzakirə edərkən heç bir konyukturaya yol verməməliyik. Hansısa bir qərarı qəbul edəcəyiksə, – bu, kimin xoşuna gələcək, ya gəlməyəcək, – bu bizi narahat etməməlidir. Biz onu həqiqət əsasında qəbul etməliyik və kimdənsə üzrxahlıq da etməməliyik: Bağışlayın, biz sizinlə qardaşıq, amma biz dilimizi belə etmək istəyirik. Mən bununla da razı deyiləm"*.

Ümummilli lider qeyd edir ki, Azərbaycanda, İranda, Türkiyənin şərqində yaşayan, eyni dilə mənsub olan insanlar əsrlər boyu yadelli sultanların, xəlifələrin və dövlətlərin hakimiyyəti altında olsalar da, ana dillərini qoruyub saxlamış, inkişaf etdirmiş, görkəmli

şəxsiyyətlər yetişdirmiş və keçmişdə, eləcə də XX əsrdə bu dildə danışmışlar. Buna görə də biz əcdadlarımıza daim minnətdar olmalıyıq. Dilimizin dövlət dili statusu alması yalnız 1978-ci ildə qəbul edilmiş Konstitusiyada təsbit olunubdur. O, deyirdi: *"Məhz bu dövrdə biz Nizami Gəncəvini qaldırıb dünyaya tanıda bilmişik. Məhəmməd Füzulini də, Nəsimini də, Mirzə Fətəli Axundovu da, Sabiri də, Seyid Əzim Şirvanini də, Abbasqulu Ağa Bakıxanovu da tanıtmışıq və bütün bunların hamısını o dövrdə etmişik. Bu şəxsiyyətlər keçən əsrlərdə, dövrlərdə məgər dünyada bu qədər məşhur olublarmı? Yox, heç vaxt. Bu, bizim dövrümüzün bəhrəsidir və bunların hamısı da Azərbaycan adı ilə, dili ilə bağlı olubdur".*

Heydər Əliyev XX əsri Azərbaycan dilinin inkişafında ən məhsuldar dövrlərdən biri kimi səciyyələndirirdi: *"Bu dövr bizim üçün, ədəbiyyatımız, tariximiz üçün böyük bəhrəli, məhsuldar bir dövrdür və bu dövrdə dilimiz inkişaf edibdir... Tarixi köklərimizə, tarixi keçmişimizə böyük hörmət və ehtiramımızı bildirərək eyni zamanda bu gün deməliyik və mənəvi haqqımız var deyək ki, XX əsrdə bizim dilimiz öz inkişaf dövrünü keçib, formalaşıb, özünəməxsus adını götürüb və gəlib dövlət dili səviyyəsinə çatıb. İndi bunun adını dəyişdirib başqa ad qoymaq heç bir nöqteyi-nəzərdən düzgün deyil – həm tarixi nöqteyi-nəzərdən, həm fəlsəfi nöqteyi-nəzərdən, həm Azərbaycan dövlətçiliyi nöqteyi-nəzərindən, ölkəmizin bu günü və gələcəyi nöqteyi-nəzərindən düzgün deyil"* (Heydər Əliyevin dil siyasəti, 2009).

Müdrik şəxsiyyət tarixi keçmişimizdən aldığımız dərsləri yada salır, onları unutmamağı və ibrət almağı tövsiyə edirdi. Onun müəllifi olduğu azərbaycançılıq fəlsəfəsi bu gün də bütün dünyaya yayılmış həmvətənlərimizi birləşdirən milli ideologiyadır. O, keçmişimizi, soy-kökümüzün ünvanını da doğru-düzgün göstərərək deyirdi: *"Bizim keçmişimiz məlumdur, biz onu inkar etmirik, – yenə də deyirəm, biz türk mənşəli bir xalqıq. Bizim dilimiz türk dilləri qrupuna məxsus dildir. Ancaq o 23 dil kimi, bizim də öz dilimiz var"* (Ahmedova, 2010).

Ümummilli lider hər bir çıxışında qeyd edirdi ki, bütün dünya bizi azərbaycanlı kimi tanıyır və dilimizin adı da Azərbaycan dilidir. O, xüsusi olaraq vurğulayırdı ki, dilimizin adını dəyişməklə biz dünya ictimaiyyətini çaşdıra bilərik və birdən-birə dünyanı bu məsələdə maarifləndirmək mümkün olmazdı. O deyirdi: *"Bizim ərazimizdə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul olunmuş hüdudlar çərçivəsində Azərbaycan Respublikasında yaşayanlar azərbaycanlılardır... Biz öz dilimizi gedib heç bir başqa dilə nə qarışdırmalıyıq, nə də ona yapışdırmalı, qoşmalıyıq. Bizim özümüzün dilimiz var. Bu dil də bizim dilimizdir. Mən bunu demişəm, yenə də deyirəm, – türk dilləri qrupuna məxsus olan digər dillər, ola bilər, həsəd apara bilərlər ki, bizim dilimiz nə qədər zəngindir".*

Dil xalqın və dövlətin əsas atributlarından biridir. Bu mənada Azərbaycan dilinin yaranması dövlətçilik ənənəsilə sıx bağlı olan fenomendir. Ulu öndər Heydər Əliyev deyirdi: *"Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə – Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır"*.

Qədim tarixə malik olan Azərbaycan dili cilalana-cilalana bu günlərə kimi gəlib və dövlət dili səviyyəsinə qədər yüksəlib. Ulu öndər Heydər Əliyev Azərbaycan dili haqqında deyirdi: *"Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan dilini əbədi edibdir və bu gün Azərbaycan dilimiz yaşayır və yaşayacaqdır. Qoy Azərbaycan dili müstəqil Azərbaycanda, eləcə də dünyada yaşayan bütün azərbaycanlıların dili olsun"* (Heydər Əliyevin dil siyasəti, 2009).

**Nəticə**

1. Azərbaycan Respublikasında dil siyasətinin möhkəm əsaslar üzərində formalaşdırılması, Azərbaycan dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilərək beynəlxalq aləmdə nüfuzunun artması bilavasitə Ulu öndərin adı ilə bağlıdır.

2. Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək olmuş, milli dilimizin qorunması və təbliği istiqamətində müstəsna tədbirlər görmüşdür. Ölkəmizdə ana dilinin hərtərəfli inkişafında, onun saflığının qorunmasında, işlək dilə çevrilməsində və beynəlxalq münasibətlər sisteminə yol tapmasında Ulu öndərin mühüm xidmətləri olmuşdur. Görkəmli dövlət xadimi ana dilinə – Azərbaycan xalqının milli dilinə daim qayğı ilə yanaşmışdır.

3. "Dil milli mənliyin açarıdır, milli tərbiyə vasitəsidir", – deyən Heydər Əliyev öz natiqlik bacarığı ilə bu dili yaşadırdı. Azərbaycanda məhz siyasi natiqliyin formalaşmasında ümummilli liderin əvəzsiz xidmətləri olmuşdur. Ulu öndərin nitqi öz səmimiliyi, zənginliyi, orijinallığı ilə dünyanın siyasi xadimlərinin nitqləri ilə müqayisə oluna bilər. Görkəmli dövlət xadimi hər zaman çıxışlarında şifahi nitqə üstünlük verir, yazılı məruzə və ya çıxışlardan, demək olar ki, imtina edirdi.

4. Ümummilli liderin çıxış etdiyi auditoriyalar həmişə öz zənginliyi ilə seçilirdi. O öz əzəmətli görünüşü, baxışı, səsi ilə auditoriyanın diqqətini özünə çəkə bilir, auditoriya ilə ünsiyyətə girir, diskussiya aparırdı. Bu dahi şəxsiyyətin nitqindəki sistemlilik, ardıcıllıq və məntiqilik bütün çıxışlarında özünü büruzə verirdi. Heydər Əliyev çıxış edərkən bütün varlığı, inamı ilə danışır, xalq danışıq dilindən gələn ifadələri məharətlə işlədirdi. Ana dilini ürəkdən sevən, bu dildə danışmağı ilə fəxr edən ümummilli lider bənzərsiz

nitqlərində, dərin məzmunlu çıxışlarında dilimizin rəngarəng ifadə vasitələrindən ustalıqla istifadə edirdi. Onun natiqlik məharətini ana dilini dərindən bilməsi və bu dildən mənəvi zövq alması şərtləndirir. Heydər Əliyev eyni zamanda Azərbaycan dilinin bütün sahələr üzrə yayılması ilə bağlı ciddi işlər görmüşdür.

5. XX əsrin ikinci yarısından Azərbaycan dilinin hərtərəfli inkişafı, ümumişlək dilə, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın böyük dövlətlərinin və beynəlxalq təşkilatların kürsülərində səslənməsi bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilinin keşiyində durmaq liderin həyat fəaliyyətinə çevrilmişdi.

6. Heydər Əliyevin Azərbaycan dilinin inkişafı, onun tətbiqi sahəsinin genişləndirilməsi və yad təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində apardığı siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 23 may 2012-ci ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair" sərəncamı, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" (24 oktyabr 2013-cü il) sərəncamı Azərbaycan dilinin inkişafında yeni mərhələ oldu.

7. Ümummilli lider Heydər Əliyevin dil siyasəti, onun dilimizin inkişafı istiqamətində göstərdiyi tarixi xidmətlər əsl məktəbdir və bu məktəbin təcrübəsindən zaman-zaman istifadə olunacaqdır.

## Ədəbiyyat


1. Abdulrazaqova, N. (2012, 14 dekabr). Heydər Əliyev və ana dilimiz. *Respublika*, 10.
2. Ahmedova, S. (2010). *Haydar Aliyevin dil siyasəti*. Öz kağıtçılıq matbaacılık.
3. *Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı*. (2013, 9 aprel). http://www.president.az/articles/7744
4. *"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.* (2013, 24 oktyabr). www.e-qanun az/frame work/ 27274
5. Əliyev, V. (2003). *Heydər Əliyevin dil siyasəti*. Nurlan.
6. *Heydər Əliyevin dil siyasəti* (rəsmi sənədlər). (2009).
7. Xudiyev, N. (2007). Uğurlu yolun layiqli davamçısı. Nurlan.
8. Qasımlı, M. (2015). *Azərbaycan Respublikasının xarici siyasəti* (1991−2003). II hissə. Mürtəcim.
9. Nəbiyev, B. (2007). *Heydər Əliyev haqqında etüdlər*.
10. Vəliyev, İ., Muxtarov, K. (2003). *Heydər Əliyev və türk dünyası.* AzAtaM.
11. Zamanov, N. (2013). *Heydər Əliyev və Azərbaycanda nitq mədəniyyəti* (I kitab). Elm və təhsil.
12. *"2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*. (2009, 22 may). https://edu.gov.az/upload/file/islahat-proqrami.pdf